

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 104 (21.514)

8 iyun 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Berlində Almaniya Federativ Respublikasının vitse-kansleri, iqtisadiyyat və enerji naziri Ziqmar Qabriel ilə görüşüb.

Görüşdə Azərbaycan-Almaniya ikitərəfli əlaqələrinin yüksək səviyyəsindən məmnunluq ifadə edilib, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirilib.

Söhbət zamanı böyük iqtisadi layihələrin həyata keçirilməsi, kənd təsərrüfatı, əczaçılıq, təhsil, nəqliyyat, enerji, su təsərrüfatı, torpaqların təmizlənməsi, kosmik sənaye və digər sahələrdə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

* * *

İyunun 7-də Berlində Azərbaycan-Almaniya İqtisadi Forumunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib.

Almaniya Federativ Respublikasının vitse-kansleri, iqtisadiyyat və enerji naziri Ziqmar Qabriel Azərbaycan Prezidentini salamlayaraq bu Forumun keçirilməsindən məmnun olduğunu bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda çıxış edib.



## 45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə əlavə seçkilərin təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə əlavə seçkilər 2016-cı il avqustun 6-na təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** — **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 iyun 2016-cı il*

## Dövlət proqramı uğurla icra olunur

***Son illər muxtar respublikada həyata keçirilən tədbirlər sırasında əhalinin məşğulluğunun təmin olunması üstün istiqamət verilən sahələrdən birinə çevrilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı 2016-cı ilin ilk beş ayı ərzində görülən işlər barədə məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etdik. Nazirlikdən bildirdilər ki, adıçəkilən dövlət proqramı işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şəraitin yaradılmasına, özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə əsaslı zəmin yaradıb.

Nazirlik tərəfindən cari ilin 5 ayı ərzində həmin proqramın icrası ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. Belə ki, muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılıb, işəgötürənlər tərəfindən vakansiyalar haqqında hesabatların təqdim edilməsinə nəzarət daha da artırılıb və bu məqsədlə vaxtaşırı monitorinqlər keçirilib. Bununla yanaşı, sosial müdafiəyə xüsusi ehtiyacı olanların və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluqlarını təmin etmək məqsədilə sosialyönümlü layihələr reallaşdırılıb.

Müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədilə qeyd olunan dövr ərzində 77-si dövlət, 86-sı isə özəl müəssisə olmaqla, ümumilikdə, 163 müəssisədə sorğular keçirilib. Muxtar respublikanın əmək bazarına daxil olan əcnəbi işçi qüvvəsinin keyfiyyət tərkibi nəzərə alınaraq, işçilərin ixtisasının artırılması və müəssisələrdə mövcud olan vakansiyaları yerli işçi qüvvəsi hesabına təmin etmək məqsədilə maarifləndirici bukletlər hazırlanıb və işəgötürənlərə təqdim olunub.

İşaxtaran və işsiz vətəndaşların münasib işlə təmin edilməsi məqsədilə aktiv məşğulluq tədbirlərinin davamlılığına diqqət artırılıb, 992 nəfər məşğulluq xidməti orqanlarına qeydiyyatda olan vakant iş yerlərinə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 17 nəfər kvota yerlərinə göndərilib, 58 nəfər, o cümlədən 8 məhdud fiziki imkanlı şəxs haqqıödənilən ictimai işə cəlb olunub. İşlə təmin olunanlardan 52-si məhdud fiziki imkanlı, 4-ü cəzaçəkmə müəssisəsindən azad edilən, 17-si isə hərbi xidmətdən tərxis olunan vətəndaşlardır. Kənd və qəsəbələrdə fəaliyyət göstərən bərbər, gözəllik salonu və dərzi sexlərində bərbər, qadın bərbəri və dərzi olmaqla, ümumilikdə, 36 nəfər işlə təmin edilib. İşlə təmin olunanların 3-ü sağlamlıq imkanları məhdud şəxslərdir.

Keçirilən əmək yarmarkalarında 180 nəfər peşə və ixtisasına uyğun işə qəbul üçün göndəriş alıb.

Məlumatda o da bildirilir ki, Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil edilir. Qeyd olunan dövr ərzində müxtəlif peşə kurslarına 154 nəfər cəlb edilib.

Evlərdə xalça toxunuşu ənənəsini davam etdirmək üçün "Ənənəni qoruyaq, evdə xalça toxuyaq!" adlı sosialyönümlü haqqıödənilən ictimai iş təşkil edilib. Evdar qadınların müvəqqəti məşğulluqlarını təmin etmək məqsədilə Şərur, Babək, Ordubad, Culfa, Şahbuz rayonlarında və Naxçıvan şəhərində, ümumilikdə, 11 nəfər xalçatoxuyanla əmək müqaviləsi bağlanılıb, müvafiq ölçüdə xalçaların toxunması üçün onlar lazımi avadanlıq və alətlərlə, həmçinin materialla təmin ediliblər.

Muxtar respublikada əhalinin məşğulluq imkanlarının artmasının nəticəsidir ki, vətəndaşlar tərəfindən işsizlik statusunun təyini ilə bağlı məşğulluq xidməti orqanlarına müraciət daxil olmayıb.

Naxçıvan Biznes Mərkəzində 2015-ci ilin yekununa görə özəl sektorda fəaliyyət göstərən, yeni istehsal sahəsi yaratmaqla işaxtaranların daimi işlə təmin olunmasında iştirak edən hüquqi və fiziki şəxslərin fəaliyyətlərini qiymətləndirmək üçün keçirilən "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin qaliblərinə mükafatlar verilib.

Bu dövrdə qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqqının reallığı əks etdirməsi ilə bağlı 336 obyektdə yoxlama aparılıb, 196 halda yeni əmək münasibətlərinin rəsmiləşdirilməsinə, 865 halda isə əməkhaqqının real göstərilməsinə nail olunub.

Dövlət proqramının icrası ilə bağlı həyata keçirilən kompleks məşğulluq tədbirləri işaxtaranların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə imkanlar yaradıb.

## Qayıdışdan Qurtuluşa

### Bu mövzuda Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib

***Naxçıvan Tibb Kollecində "Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa" mövzusunda Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.***



Milli Qurtuluş Gününə həsr olunan məşğələni giriş sözü ilə Naxçıvan Tibb Kollecinin direktor əvəzi Mehri Seyidbəyli açaraq tədbir iştirakçılarına ulu öndərimizin keçdiyi həyat yolu, görkəmli dövlət xadiminin siyasi fəaliyyəti, müstəqil Azərbaycan naminə gördüyü işlər, xalqın qurtuluşu üçün misilsiz xidmətləri haqda məlumat verdi.

Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Elman Cəfərli məruzəsində qeyd etdi ki, 1990-cı ilin iyulunda ulu öndər Heydər Əliyevin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıtması muxtar respublika əhalisi tərəfindən böyük ümid və sevinc hissi ilə qarşılandı, bu tarixi hadisə Azərbaycanı Azərbaycana qaytarmaq missiyasının başlanğıcı, istinad nöqtəsi oldu. 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq ümummilli lider Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürməklə muxtar respublikanın, ümumilikdə isə Azərbaycanın qurtuluşunu məhz ulu öndərimizin yenidən siyasi hakimiyyətə qayıdışında gördü.

Bildirildi ki, 1993-cü il iyun ayının əvvəllərində ölkəmizdə yaranmış gərgin ictimai-siyasi hadisələr kulminasiya nöqtəsinə çatdı, silahlı qarşıdurmalar fonunda hakimiyyət böhranı, siyasi böhran bütün ölkəni öz cənginə aldı. Azərbaycan öz dövlət müstəqilliyini bir əsrdə ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qaldı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ulu öndərimiz Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verdi, onun nicatı uğrunda siyasi mübarizəyə başladı və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu. 15 iyundan başlayaraq ulu öndərin müdrik daxili və xarici siyasəti nəticəsində hüquqi-demokratik dövlət quruculuğu, Milli Ordunun formalaşdırılması istiqamətlərində əsaslı addımlar atıldı, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi sahəsində böyük işlər görüldü, işğal edilmiş torpaqlarımızın azad olunması istiqamətində ardıcıl, fəal xarici siyasət yürüdüldü. Xalqın təkidi ilə ümummilli liderimizin hakimiyyətə qayıdışından sonra ölkədə bərqərar edilən dinamik sosial-iqtisadi inkişaf və siyasi sabitlik müstəqilliyimizin möhkəmləndirilməsində, ölkəmizin sivil dünyaya qovuşmasında, beynəlxalq aləmə inteqrasiyasında və müasir cəmiyyətin qurulmasında həlledici rol oynadı. Bu gün Azərbaycan ulu öndər Heydər Əliyev yolu ilə inamla irəliləyir. Bu yolu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düzgün, düşünülmüş siyasəti ölkəmizi uğurlardan uğurlara aparır.

Sonra tədbir iştirakçıları ulu öndərimizin həyat və fəaliyyətindən bəhs edən sənədli filmə baxıblar.

## Əl işlərinin və ixracyönümlü məhsulların elektron kataloqları hazırlanıb

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məqsədyönlü tədbirlər muxtar respublika iqtisadiyyatının bütün sahələrinə, o cümlədən xarici ticarət əlaqələrinə öz müsbət təsirini göstərir.***

Mövcud müəssisələrin istehsal potensialının genişləndirilməsi, məhsul çeşidlərinin artırılması həmin məhsulların təbliği və realizasiyası üçün müasir üsullardan istifadə zərurəti yaradıb. Bu istiqamətdə məhsulların daha geniş məkanda, intensiv təbliği və realizasiyasına köməklik göstərilməsi məqsədilə internet məkanından səmərəli istifadə olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına əsasən, muxtar respublikada istehsal olunan, ixrac baxımından perspektivli hesab edilən məhsulların və xalq yaradıcılığı nümunələrinin, o cümlədən sənətkarların əl işlərinin və sənət əsərlərinin elektron kataloqları hazırlanıb. Kataloqlarda məhsulların və sənət əsərlərinin fotoşəkilləri, istehsalçılar haqqında Azərbaycan və ingilis dillərində müvafiq məlumatlar yerləşdirilib.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, xalq yaradıcılığı nümunələri və əl işlərinin kataloqunda muxtar respublikada fəaliyyət göstərən xalçatoxuma üzrə 35, ağac üzərində oyma sənəti üzrə 50, dekorativ-tətbiqi sənət üzrə 60, papaqçılıq üzrə 20, mis üzərində döymə sənəti üzrə 30, xəttatlıq üzrə 4, rəssamlıq üzrə 285 olmaqla, ümumilikdə, 484 ədəd əl işi və sənət əsəri yerləşdirilib.

Naxçıvan məhsullarının ixrac kataloqunda isə muxtar respublikada fəaliyyət göstərən 37 ixrac potensiallı müəssisəyə aid ərzaq və qeyri-ərzaq olmaqla, 339 çeşiddə məhsulun nümayişi təmin olunub.

Muxtar respublikada məhsul çeşidləri artdıqca elektron kataloqların daha da zənginləşdirilməsi nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

### Müasirləşən kəndlərimiz

# Dağ kəndinin yeni növrağı

*Yolumuz Şahbuz rayonunun Keçili kəndinədir. Yolboyu təbiət yazın bu allı-güllü vədəsində üzümüzə gülür. Otu qurşağa çıxan, gülü-çiçəyi sinə sığallayan çöllərin, çəmənlərin gözəlliyini cəh-cəh vuran quşların səsi daha da cazibədar edir. Dağlara sarı boylananda zirvələrdən üzüaşağı dərələrin sinəsini oxşaya-oxşaya axan çeşmə suları dərələrin dibindən keçən çaya qoşulur.*

#### Hər kəs yüz il yaşamasa...

Səhər saatlarıdır. Günəş qarşıdakı dağların sinəsindən qalxaraq al şəfəqlərini dərənin-təpənin, gülün-çiçəyin, çayın-çeşmənin üzərinə yaydıqca təbiət bəzənmiş bir gözələ oxşayır. Kəndə yaxınlaşdıqca burada təbiətin insan ruhuna hakim kəsilən bir gözəlliyə sahib olduğunu görürük. Uzunömürlülər diyarı olan Keçilidə yaşı yüzü haqlayan, ya da iki əsrin şahidləri təvəllüdlərini xalı-xalçaya, məcməyiyə, qazana, sərnicə yazmaqla bu kəndin unudulmayan qədim tarixini yaratmışlar. Çünki həmin tarixlər hansısa hadisəni yaddaşlara salır. Kənddə görüşdüyüm uzunömürlülərdən bir neçəsi öz doğum tarixini həmin vaxt baş vermiş hadisələrlə əlaqələndirərək dedilər: “Sovet kəndə gələndə mənim iki yaşım var imiş”, “Bu kəndə bolşeviklər ayaq açanda mən hələ gətir-götür işlərinə də buyurulmurdum”.

Beləcə, ahıllar müxtəlif tarixi hadisələri xatirələrində yaşadırlar. Kənddə olarkən burada bir yas mərasiminin olduğunu eşitdim. Kəndin özünəməxsus adət-ənənələrini yaşadan insanların həmin məclisdə olduğunu bildiyimdən onlarla elə yas mərasimindəcə görüşdüm. Oturuşu-duruşu, ədəb-ərkanı məktəb olan ağbirçəklərin, ağsaqqalların bir neçəsi ilə söhbət edib uzunömürlülüyün sirrini soruşdum:

– Keçili kəndinin ab-havası can məlhəmidir. Bura dağ havasının sərinliyi ilə aranın quru havasının görüş yeri, bir-birinə qovuşduğu oylaqdır. Suyumuz da, yeməyimiz də hava qədər loğmandır. Azar-bezarı kəsər, dərdi-bəlanı tökər. Burada su içməkdən doymazsan. Belə yerdə yaşamağa nə var ki? Yüzü də haqlayarsan, hələ o tərəfə də keçərsən. Ömrümüz-günümüz açıq havada, alaçıqda keçib, soyuqda yun, istidə pambıq geyinmişik. Yazda yaylaq, qışda qışlaq oylağımız olub. Torpağa əyilmişik, ona alın tərimiz qarışıb.

Bildirdilər ki, bu kənddə son illərə qədər yaşayan, 107 il ömür sürən Fatma Əsgərova və 100-ü haqlayan Bənövşə Məsməliyeva, Mahbəyim Kərimova zəhmətə mehr salıb uzun ömür sürmüşlər.

Dünyagörmüşlərlə söhbət etdikcə fikirləşirdim ki, bu kəndə gələn hər hansı bir qonaq burada günlərlə yox, aylarla qalmaq istəyər. Çünki hər könüldə bir dünyalıq arzu olduğunu, qəlbin genişliyini, ürəyin açıqlığını görməmək, ona məftun olmamaq mümkünsüzdür. Dünyanın harasında belə bir kənd var ki, orada bağışlamağı da, alqışlamağı da yerində-yatağında bilən insanların uzun ömür sürməsinin səbəbini torpaqda, yurdda, dədə-baba qaydalarında, adət-ənənələrdə gördüklərinə əmin olasan. Kənddə məhəllələri, küçələri keçib dağ döşündə tikilmiş evlərə üz tutanda hansı tərəfə baxırdımsa, evlərin, həyətlərin sahmanını görürdüm. Elə bilirdim ki, dünya burada qurtarır.



#### Dövlət qayğısı sakinlərin rahatlığını təmin edib

İllərlə köhnəlik havası ilə yaşayan kəndə xoş günlərin sorağını müstəqillik illəri gətirib. Qocaman kənd sakinləri keçmişdə qaraçraqlı, beliyarıqlı yer damlarında, hisli-paslı evlərdə yaşadıqlarını dedilər. Kəndin ağsaqqalı Əli Əliyev o vaxtlar “cındırımızdan cin ürkərdi, bir həsirdi, bir də məmmədyesir”, – dedi. Amma indi, şükür Tanrının kəraminə, nəyimiz yoxdu ki? Son 15-20 ildə kəndimizə hər cür qayğı göstərilib. Yollarımız keçmişdəki kimi zığ-palçıq, daş-çınqıl deyil, qara asfaltdı. İşığımız, qazımız, suyumuz, evimizdə istədiyimiz yaxşı şəraiti yaratmağa imkanımız var. Son vaxtlar kəndlərə turistlərin gəlməsi ilə bağlı söz-söhbətlər eşidirik. Vallah, kəndimizdə belə gözəl şərait yaradılandan sonra ilin elə bir fəsli olmaz ki, bu kəndə gələn qonaqqaranın sayı azalsın. Yaz, yay, payız aylarında isə az qala hər evin bir qonağı olar. Biz də əlimizdən gələn qədər onlara hər cür hörmət edirik, qonaq saxlayırıq. Varımızdan-yoxumuzdan pay tuturuq.

Rayon mərkəzindən 20 kilometr məsafədə yerləşən Keçili kəndini başlanğıcını Üçqardaş, Camal qalası, Sərxan səngəri kimi dağlardan götürən gur çay ikiyə bölərək axarlı-baxarlı edir. Çeşmələrin, dağ sellərinin əl-ələ veribmiş kimi uca dağların sinəsindən şırımlar açıb, yarğanlar yaradıb çaya tökülməsi sayəsində çayın suyu elə bil ki, aşıbdaşır. O şırımlar, yarğanlar kəndin ətəyində toxtayır. Dağ sularının birləşib çaya töküldüyü yerdə kiçik bir şəlalə də yaranıb. Belə bir əsrarəngiz təbiət mənzərəsi olan kəndə son illərdə dövlət qayğısı ilə, sakinlər deməkən, xeyli sığal çəkilib. Köhnələr təzələnib, yenisi ilə əvəzlənib. Abadlıq, yenidənqurma kəndə başqa bir mənzərə bəxş edib. Kənd sakinləri torpağa, yurda bağlı insanlar olduqlarından onun bir qarışını belə, boş qoymayıblar.





Keçilidə kənd sakini Vüqar Səfərovla bu yurd yerinə göstərilən dövlət qayğısından və buranın turizm imkanlarından söhbət açdıq. Həmsöhbətim sərhəd kəndinin bənzərsiz təbiət gözəlliklərindən, əsrarəngiz mənzərələrindən, bərəkətli torpağından həvəslə danışaraq dedi:

– Son illər Şahbuzun sərhəd kəndi də inkişaf yoluna qədəm qoyub. Kəndə göstərilən dövlət qayğısı ilə burada yeni infrastruktur sahələri yaradılıb. Bu gün xoş günlərdən soraq verən bir gözəllik ünvanına çevrilib Keçili kəndi.

Qeyd etmək istəyirəm ki, kənd camaatını ən çox razı salan kəndin binə olunduğu vaxtdan girəcəyindəki sıldırım qayaların ətəyi ilə axan Şor və Şirin çaylarının üzərindəki bərbad körpünün yenidən salınmasıdır. Bu gün 419 təsərrüfatda birləşən 1764 nəfərin yaşadığı 282 ev bu sərhəd kəndində düşmənə gözdağına, xoş günlərin sorağı kimi yeniliyin göstəricisinə çevrilib. Dövlət qayğısı nəticəsində kəndin cavanları burada yurd-yuva salıb, ev qururlar. Keçilinin “Aralıq” adlanan massivində hazırda 13 evdə 32 nəfərə yaxın kənd sakini məskunlaşıb. “Aralıq”dan başqa, kənddə bir məhəlləyə də Keçili çayından dağların döşü ilə təsərrüfat suyu və Çınqıllı bulağından içməli saf su çəkilib.

Bağlarda səliqə ilə sıralanmış meyvə ağaclarına baxanda isə kənd sakinlərində əsl təsərrüfatçı səliqəsinin olduğunu görmək mümkündür.

Burada əhaliyə tibbi xidmət üçün həkim ambulatoriyası fəaliyyət göstərir. Kənd sakinlərindən bir neçəsi həmin müəssisədə işləyir. Kənd mərkəzində yerləşən mədəniyyət evi, kitabxana, baytarlıq, ATS və başqa xidmət sahələri əhalinin istifadəsindədir.

Sevindirici haldır ki, kənddə əhaliyə göstərilən rabitə xidməti də müasir elmi-texniki yeniliklərə əsaslanır. Keçilidə 260 nömrəlik ATS quraşdırılıb.

#### Kənd məktəbinin öz ənənələri var

Beş yüz dörd yerlik yeni məktəb binasında təhsil alan kənd uşaqları yaxşı oxumaqla həm müəllimlərini, həm də valideynlərini sevindirirlər. Məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Hüseyn Nağıyev bu təhsil ocağının özünəməxsus ənənələri olduğunu deyir. Bildirir ki, məktəbi bitirən məzunların əksəriyyəti ali təhsil alır. Direktor xüsusilə bir faktı da diqqətimizə çatdırır ki, elə illər olub, bu məktəbi bitirən məzunların hamısı ali məktəb tələbəsi adını qazanıblar. Keçən il məktəbi bitirən 14 məzundan 7 nəfəri ali məktəbə, 2 nəfəri orta ixtisas məktəbinə daxil olub. Direktor onu da vurğulayır ki, bu gün kənd məktəbində dərs deyən bütün müəllimlər bu kəndin öz yetirmələridir. Hazırda kənd məktəbində 49 müəllim və texniki işçi çalışır.

Keçili kəndinin yaddaşlardan silinməyən, unudulmaz 20 Yanvar şəhidi Teymur Alməmmədovu da var. Şəhid ailəsinə yaxşı yaşayış üçün dövlət tərəfindən lazımi köməklik göstərilib, 2010-cu ildə isə fərdi mənzil tikilib.

#### Keçilidə kənd təsərrüfatı ilbəil inkişaf etdirilir

Dağlar, dərələr məskəni olan Keçilidə əhalinin dolanışıq mənbəyi sayılan bağçılığın, heyvandarlığın, arıçılığın inkişafına əhalinin maraq göstərdiyini gördük. Kənddə həyata keçirilən aqrar islahatlar nəticəsində sakinlər imkanlarından yetərincə istifadə etməyə çalışırlar. Gözəl bilirlər ki, torpaqla ülfət bağlayan ac qalmaz. Keçili kəndinin qoynuna sığındığı dağlar, sakinlərin fikrincə, kifayət qədər otlu, sulu sahələrdir. Ona görə də heyvandarlıq və arıçılıq üçün bu yerlər çox əlverişli sayılır. Məsələn, “Quyluq”, “Sərxan” və “Xırxır” kimi ərazilərdə kifayət qədər örüş yeri olduğu üçün heyvandarlıq ilbəil inkişaf etdirilir.

Kəndin təbii iqlim şəraiti meyvəçilik üçün də əlverişlidir. Bağlarda gözəlliyi gözoxşayan bir neçə adda alma, armud dad-tamı ilə seçilir. Bu gün kənddə hektarlarla meyvə bağı var ki, həmin bağlardan mövsüm ərzində tonlarla məhsul yığılaraq bazara çıxarılır. Kənddəki şəxsi təsərrüfatlarda istehsal olunan yerli məhsullar alıcılar tərəfindən razılıqla qarşılanır. Belə məhsul bolluğu həm də bazarlarda qiymətlərin aşağı düşməsinə səbəb olan əsas amildir.

#### Kənddə istehsal müəssisələri qurulub

Bu dağ kəndində indi iki istehsal müəssisəsi – Çınqıllı lavaş və Çınqıllı su sexləri fəaliyyət göstərir. Həmin istehsal müəssisələrində bir neçə kənd sakini işlə təmin olunub. Bundan başqa, yerli məhsul istehsalı rayon əhalisinin həmin məhsullara olan tələbatını da qismən ödəyir. Bu isə dövlətin iqtisadi siyasətinə dəstək olmağın göstəricisidir.

*Keçilinin bugünkü gözəlliyini, tərəqqisini görmək kənd sakinlərinin uzun illər ən böyük arzusu olub. Bu gün həmin arzu muxtar respublikada ulu öndər Heydər Əliyev siyasətinə və yoluna dönməz sədaqətin hesabına reallaşıb.*

**Şəhla NƏBİYEVA**

---

### İstehsal müəssisələri

# “Şirvanşahlar” Ayaqqabı Fabrikində məktəbli ayaqqabılarının istehsalına başlanılacaq

*Daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Şirvanşahlar” Xarici İqtisadi Əlaqələr Assosiasiyasının ayaqqabı fabrikidir.*

Sahibkar Namiq Əliyev bizimlə söhbətində qeyd etdi ki, 1994-cü ildə “Şirvanşahlar” Xarici İqtisadi Əlaqələr Assosiasiyasını yaradıb ticarətlə məşğul olurduq. Lakin hələ gənc yaşlarımdan ayaqqabı istehsalına marağım olduğundan 2000-ci ildə kiçik bir sexdə ayaqqabı istehsalına başladıq. Satışa çıxarılan məhsullara tələbat artdı. Daha çox və keyfiyyətli məhsul istehsal etmək üçün ayaqqabı fabrikinin inşa olunması, müasir texnoloji avadanlıqların alınıb quraşdırılması zərurəti yarandı. Digər sahibkarlar kimi, biz də dövlət qayğısından bəhrələndik. Yeni istehsal sahəsi qurmaq üçün biznes-plan hazırlayıb Sahibkarlığa Kömək Fonduna təqdim etdik. 2008-ci ilin mart ayında Sahibkarlığa Kömək Fondundan 70 min manat dövlət maliyyə dəstəyi göstərildi. Son illər Naxçıvan şəhərində yaradılan sənaye şəhərciyində 750 kvadratmetr torpaq sahəsi ayrıldı ki, burada da müəssisə üçün 2 mərtəbəli bina inşa olundu. Binada ayrı-ayrı iş otaqları, 5 istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana və digər yardımçı otaqlar istifadəyə verilib. Müasir texnoloji avadanlıqların alınması üçün 2008-ci ildə Sahibkarlığa Kömək Fondundan 44 min manat güzəştli kredit ayrılıb. Bu vəsaitlə Almaniya, Macarıstan, Yaponiya, Tailand, İran və Türkiyə mənşəli 16 adda müasir texnoloji avadanlıq alınıb gətirilərək quraşdırılıb. Bir sözlə, müəssisədə yüksəkkeyfiyyətli məhsul istehsal etmək üçün hər cür şərait yaradılıb.

Müəssisədə yeni istehsal sahəsinin yaradılması məqsədilə 2009-cu ilin mart ayında Sahibkarlığa Kömək Fondundan əlavə olaraq 60 min manat dövlət maliyyə dəstəyi göstərildiyini bildirən müsahibim onu da qeyd etdi ki, Türkiyənin “Teker” firmasının istehsalı olan ayaqqabı altlıqları istehsal edən avadanlıq, köməkçi dəzgahlar, müxtəlifölçülü və müxtəlifmodelli qəliblər alınıb gətirilərək quraşdırılıb. Gündəlik istehsal gücü 400-500 cüt olan ayaqqabı altlıqları istehsalı sahəsi 2009-cu ilin may ayından fəaliyyətə başlayıb. Ümumilikdə, quruculuq tədbirlərinə və texnoloji avadanlıqların alınıb quraşdırılmasına 380 min manat vəsait sərf olunub ki, bunun da 206 min manatı daxili imkanlar hesabına ödənilib. Gündəlik istehsal gücü 350-400 cüt ayaqqabı olan müəssisədə tələbata uyğun olaraq müxtəlif çeşidlərdə ayaqqabı istehsal edilir. Hazırda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, “Gəmiqaya”, “Cahan” və “Dizayn” Holdinq Şirkətlər ittifaqlarının, Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin sifarişlərinə uyğun olaraq, müxtəlif çeşiddə ayaqqabılar istehsal olunur. Artıq ali, orta ixtisas və ümumtəhsil məktəblərinin formalarına uyğun ayaqqabı istehsal etmək üçün Türkiyə Respublikasında fəaliyyət göstərən bu sahə üzrə qabaqcıl təcrübəyə malik ayaqqabı istehsalçıları ilə əlaqələr qurulub, müxtəlif yaş qruplarına uyğun müxtəlif ölçülərdə və modellərdə qəliblər sifariş verilib. Yeni avadanlıqların alınması üçün ayrı-ayrı şirkətlərlə müqavilələr bağlanılıb. Yaxın vaxtlarda daha müasir avadanlıqlar alınıb gətiriləcək, yeni modellərdə məktəbli ayaqqabılarının istehsalına başlanılacaq. Onu da qeyd edək ki, müəssisədə istehsal olunan müxtəlif çeşiddə qadın və kişi ayaqqabılarının topdansatışı həyata keçirilir. Həmçinin müəssisədə istehsal olunan ayaqqabıların pərakəndə satışını təmin etmək məqsədilə Naxçıvan şəhərində firma mağazasının açılması da nəzərdə tutulur.

Ayaqqabı altlıqları istehsalı üçün lazım olan material xammal şəklində, dəri, astar, yapışqan və sap isə hazır məhsul şəklində Türkiyə Respublikasından alınıb gətirilir. Təbii ki, müəssisənin maliyyə imkanları genişləndikcə dəridən hazırlanan digər məhsulların da istehsal olunması və əlavə işçi qüvvəsinin cəlb edilməsi planlaşdırılır.

Daxili bazarı yüksəkkeyfiyyətli məhsullarla təmin etmək əzmi ilə çalışan kollektiv cari ili uğurlu göstəricilərlə başa vurmaq üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir. Müəssisədə istehsal olunan ayaqqabıların ölkəmizin digər regionlarında satışa çıxarılması və xarici bazarda tanıdılması istiqamətində işlər davam etdirilir. Paytaxt Bakı şəhərində və xarici ölkələrdə keçirilən biznes forumlarda və sərgilərdə yaxından iştirak edilir. Bu sahə üzrə qabaqcıl təcrübəyə malik ayrı-ayrı şirkət və firmalarla əlaqələr qurulur ki, bu da gələcəkdə yerli məhsulların xarici bazara çıxarılmasına əlverişli şərait yaradır.

*Ayrı-ayrı istehlakçıların bu yerli məhsula olan münasibətini öyrəndik:*
*– “Şirvanşahlar” Ayaqqabı Fabrikinin istehsal etdiyi, təmiz dəridən hazırlanmış ayaqqabılar keyfiyyəti ilə seçilir, çox rahatdır, – dedilər.*

**Kərəm HƏSƏNOV**

*Axtarışlar, tapıntılar*

# General-mayor Ehsan xan

## və onun oğlu general İsmayıl xan Naxçıvanski haqqında tapılan yeni arxiv sənədləri

***Qədim tarixə malik olan Azərbaycan hərb tarixində Naxçıvanın igid Kəngərli süvarilərinin öz yeri vardır. Çar Rusiyasında Azərbaycanın uzun illər hərb sənətindən kənarda saxlanmasına baxmayaraq, Kəngərli süvariləri Rusiyanın apardığı döyüşlərdə böyük cəsarət nümunəsinə çevriliblər.***

Naxçıvanın Kəngərli tayfasının yetişdirdiyi 6 məşhur generalın göstərdiyi sərkərdəlik məharətləri ümumdünya hərb tarixində layiqli yer tutur. Kəngərli sərkərdələrinin həyat və fəaliyyətləri ilə bağlı hərtərəfli axtarışlarımız davam etməkdədir. Həmin axtarışlar nəticəsində məşhur sərkərdə I Ehsan xanın 1838-ci ilə aid xidmət kitabçası və onun hərbçi varisləri haqqında maraqlı sənədlər aşkar edilib. Bu sənədlər bir çox qaranlıq məsələləri aydınlaşdırmaqla bərabər, həm də hərb tariximizi zənginləşdirəcəkdir.

Yeni tapılan arxiv sənədlərindən biri general-mayor I Ehsan xanın 26 mart 1838-ci ildə tərtib edilən xidmət kitabçasıdır. Bu kitabçadakı qeydlərdən məlum olur ki, I Ehsan xan 22 yanvar 1843-cü ildə Zaqafqaziya müsəlman qoşunlarının hərbi yürüş atamanı təyin edilib və vəfatından sonra, yəni 3 mart 1846-cı ildə isə hərbçilərin siyahısından çıxarılıb. Daha sonra isə qeydlər aşağıdakılardır:

– Ehsan xan Kalbalı xan oğlunun 44 yaşı var (bu qeydə görə onun doğum tarixini dəqiq söyləmək olur: 1794-cü il – müəllif). Müsəlmandır, şiədir. Persiyanın nüfuzlu xanlarındandır. Farsca savadlıdır. Bu dildə oxumağı və yazmağı bacarır. Naxçıvan və Ordubad əyalətlərində daşınmaz əmlakı vardır, sahib olduğu torpaq ölçülməyib, təxminən, 60 danqa (danq ölçü vahididir – müəllif) bərabərdir.

Övladları vardır: qızı Sonabəyim 22 yaşında (1816), oğlanları İsmayıl xan 16 yaşında (1822), Kalbalı xan 14 yaşında (1824) və Cəfərqulu xan 11 yaşında (1827). Hamısı müsəlman və şiədirlər. (Buradaca qeyd edək ki, Ehsan xanın qızı Lalabəyim 1840-cı ildə anadan olduğundan bu siyahıya düşməyib. Rusiya Hərbi Nazirliyinin 19 avqust 1848-ci il məruzəsində Lalabəyimin 8 yaşı olduğu qeyd edilib – müəllif).

Ehsan xan 1827-ci ildən Rusiya təbəssidir və hərbi xidmətdədir. İgidliyinə və hünərinə görə 30 noyabr 1827-ci ildə ona polkovnik hərbi rütbəsi verilib. 19 mart 1828-ci ildə isə Naxçıvan əyalətinin hakimi, yəni naibi təyin edilib. Hərbi xidmətdə fərqləndiyinə görə ona 9 noyabr 1837-ci ildə general-mayor rütbəsi verilib.

Həbsdə olmayıb və cərimə edilməyib. Ona görə də yuxarı hərbi rütbə almağa layiqdir (daha sonra Ehsan xanın Abbasabad qalasında, Ordubadda, Vənənddə və digər yerlərdə Rusiyanın apardığı döyüşlərdə iştirakından danışılır – müəllif). Naxçıvan əyalətinin naibi vəzifəsində olarkən general-feldmarşal knyaz Varşavskinin (qraf Paskeviç-İrəvanski) 14 yanvar 1830-cu il tarixli 47 nömrəli əmri ilə ona ildə 2200 gümüş pulla təqaüd təyin edilib. 26 may 1831-ci ildə 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunub. 6 oktyabr 1837-ci ildə Rusiya çarının müsəlman Kəngərli polkuna baxışından sonra ona yüksək etimad göstərilib. Ona noyabr ayında general-mayor hərbi rütbəsi verilib.

Tapılan ikinci sənəd Hərbi Nazirliyin departamentdə poselenıyalar (I Aleksandrın dövründə general Araksayev tərəfindən həyata keçirilən qoşun təşkili üsulu, bu üsula görə bir sıra yerlərin kəndliləri əsgərliyə çağırılaraq hərbi mükəlləfiyyətlə bərabər, əkinçiliklə də məşğul olmalı idilər) haqqında məruzəsidir (18 iyul 1847-ci il).

Qeyri-nizami qoşunların manqası. Əmr №753. Sankt-Peterburq şəhəri. Əlahiddə Qafqaz Korpusunun baş komandanı xəbər verdi: General-mayor Ehsan xanın vəfatı ilə Kəngərli tayfası öz başçısını itirdi. Naxçıvan əyaləti Rusiya imperiyasına birləşdirildikdən sonra o, bu tayfanı idarə edirdi. Ehsan xanın atası I Kalbalı xan ruslarla əlaqə saxladığına görə Ağa Məhəmməd xan tərəfindən kor edilməsinə baxmayaraq, ömrünün sonuna kimi Naxçıvan əyalətini və Kəngərli tayfasını idarə etmişdi. Həmin illərdəki qanun-qaydaya uyğun olaraq hakimiyyət Kalbalı xandan sonra Ehsan xanın qardaşlarına keçmişdi. 1827-ci ildə Naxçıvan əyaləti bizim qoşunlarımız tərəfindən tutulandan sonra general-feldmarşal knyaz qraf Paskeviç-İrəvanski (Varşavski) Ehsan xanı Naxçıvanın naibi və Kəngərli tayfasının rəisi təyin etmişdi.

Mərhum Ehsan xanın göstərdiyi xidmətlər müqabilində general-adyutant knyaz Vorontsov ərizə verib aşağıdakıları xahiş etmişdir:

1. Mərhum general-mayor Ehsan xanın böyük oğlu, süvari ordusunun ştabs-kapitanı İsmayıl xanın Kəngərli tayfasına rəis təyin edilməsi haqqında. Ancaq bu təyinat Ehsan xana məxsus qaydada həyata keçirilsin. Kəngərli süvarilərinin hərbi xidmətə hazırlanması İsmayıl xanın iştirakı olmadan cəmiyyətin özü tərəfindən həyata keçirilsin.

Əlahəzrətin əmri ilə Əlahiddə Qafqaz Korpusunun keçmiş komandirinə 22 yanvar 1843-cü ildə elan edilmişdi ki, Kəngərlilər aşağıdakı qaydalar əsasında general-mayor Ehsan xana tabe edilsinlər:

1) General onlarla özünə tabe olan adamlar kimi davranmasın.

2) Heç kimə imtiyaz vermədən, ədalətlə və növbə ilə onların hərbi xidmətlərini təşkil etsin.

3) Xidmətə gedən Kəngərlilərin yaxşı geyindirilib saz silah və atla təmin edilməsinə nəzarət etsin.

4) Kəngərlilər arasında intizam hökm sürsün və kiçiklər böyüklərə tabe olsunlar.

Bununla belə general-mayor Ehsan xana Kəngərlilərdən öz məqsədi üçün istifadə etməsi qadağan edilmişdir. Özünün yanında ancaq 8 nəfərdən ibarət fəxri qarovul saxlaya bilər. Generala Kəngərlilərdən vergi almağı və itaətkarlıq göstərməyi tələb etməyə icazə verilmir. Kəngərlilərin hərbi xidmətə hazırlanması sərhəd mühafizə dəstəsinin rəisinə həvalə edilsin.

5) Kəndlərdə Kəngərlilərin daxili nizam-intizam qaydalarına nəzarət yerli mülki rəisə tapşırılsın. İddia ərizələri ilə bağlı, həmçinin digər mülki məsələlərdə onlar Naxçıvan əyalətinin digər sakinləri kimi imtiyaz daşıyırlar.

Sonra Əlahəzrətin 8 aprel 1844-cü il əmri ilə həmin rəisə tapşırılmışdır:

1) Kəngərli tayfası vergilərdən azad edilsin.

2) 200 Kəngərli süvarisi həmişə hazır vəziyyətdə olsun və onların yarısı sərhədlərin mühafizə olunmasında istifadə edilsin.

3) Birinci dəfə əvvəllərdə olduğu kimi süvarilərin lazımi əşyalarla təchiz olunması cəmiyyətin özünə həvalə edilsin. Əvvəllər bu məsələdə Ehsan xan iştirak etmişdi. Sonralar isə yerli rəhbərliyə tapşırılsın ki, süvarilərin təchiz edilməsinə ciddi nəzarət etsin.

4) Kəngərli süvarilərinə xidmət zamanı həmişə dövlət hesabına ərzaq, onların atları üçün yem 16 oktyabrdan 16 aprelədək verilsin.

2. İsmayıl xana əməkhaqqı rütbəsinə görə təyin edilsin.

Bütün bunlara knyaz Vorontsov əlavə edir:

– General-mayor Ehsan xan Kəngərli süvarilərinin rəisi vəzifəsini daşımaqla həm də Zaqafqaziya müsəlman qoşunlarının yürüş atamanı idi. Bu rütbə İsmayıl xana həvalə edilə bilməz.

– Hərbi yürüş atamanı vəzifəsinə hələlikdə münasib hərbçi olmadığından bir müddət fəaliyyətini dayandırsın.

Tapılan sənədlərdə məlumat verilir ki, İsmayıl xan gənc olduğundan ataman rütbəsini daşımağa icazə vermirlər. Həmin sənədlərdə qeyd edilir ki, ştabs-kapitan İsmayıl xan 8 il 2 ay hərbi xidmətdədir, 6 il 8 aydır ki, zabit rütbəsini daşıyır. Hərbi yürüşlərdə olmayıb. Məhkəmədə olmayıb və cərimələnməyib. Hərbi bacarığı yüksək qiymətləndirilir. İsmayıl xana verilən arayışda bildirilir ki, kameral siyahıya görə Kəngərli tayfası 1241 ailədən ibarətdir, 2634 nəfər kişidir. Bu tayfanın üzvləri Naxçıvan şəhərində və Naxçıvan qəzasının kəndlərində yaşayırlar. Kəngərlilər indi kasıb olduqlarından 200 nəfərdən çox atlını xidmət üçün hazırlaya bilmirlər.

Aşkar edilmiş arxiv sənədində Qafqaz canişininin yazdıqlarını Rusiya çarı I Nikolay təsdiqləyib: "Razıyam. 22 iyul 1847-ci il".

Beləliklə, general-mayor Ehsan xanın böyük oğlu ştabs-kapitan İsmayıl xan Kəngərli tayfasının rəisi təyin edilir.

Daha sonra sənəddə bildirilir ki, Kəngərli tayfasının rəisliyi 22 yanvar 1843-cü ildəki əsaslarla verilsin. Həmçinin Kəngərli süvarilərinin təchizat məsələsi İsmayıl xanın iştirakı olmadan cəmiyyətin özü tərəfindən təşkil edilsin. Bu haqda 6 aprel 1844-cü ildə verilən əmri əsas götürsünlər.

Bu sənəddən aydın olur ki, İsmayıl xanın daşıdığı hərbi rütbəyə uyğun olaraq əməkhaqqı da təyin olunub. 27 iyul 1847-ci ildə Rusiyanın Hərbi Nazirliyinin əmri ilə yuxarıdakılar təsdiq edilib.

*Gələcək yazılarımızda Rusiya Dövlət Hərbi-Tarix Arxivindən tapılan digər sənədləri də təqdim edəcəyik. Təqdim etdiyimiz iki sənəddə I Ehsan xanın sərkərdəlik məharəti və onun böyük oğlu İsmayıl xanın hərbi bacarığı real faktlarla öz təsdiqini tapır.*

**Musa QULİYEV**
***AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

---

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində muxtar respublikada fəaliyyət göstərən Ekoloji Tərbiyə və Texniki Yaradıcılıq mərkəzləri tərəfindən keçirilən dərnək məşğələləri üçün hazırlanmış nümunəvi tədris proqramlarının təqdimatına həsr edilmiş yığıncaq keçirilib.***

# Nümunəvi tədris proqramlarının təqdimatı keçirilib



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov açaraq muxtar respublikada məktəbdənkənar müəssisələrin qarşısına qoyulan vəzifələr barədə danışıb, bu müəssisələrdə nümunəvi tədris proqramlarının tətbiqinin günün tələbi olduğunu deyib. Qeyd edilib ki, gənc nəslin təlim-tərbiyəsinə göstərilən qayğı təkcə orta təhsil ilə məhdudlaşmayıb, məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti üçün də nümunəvi şəraitin yaradılmasına diqqət artırılıb. Uşaqların əməksevərlik ruhunda tərbiyə olunduğu və istedadlarının inkişaf etdirildiyi, eyni zamanda ekoloji problemlərin həllinə xüsusi diqqət yetirildiyi hazırkı dövrdə məktəblilərin elmi yaradıcılıq fəaliyyətinə cəlb olunmasının, ətraf mühitin qorunmasında xüsusi bacarıqlarının inkişaf etdirilməsinin böyük əhəmiyyəti vardır.

Təhsil alan gənclərdə insan-cəmiyyət-təbiət sistemində qarşılıqlı əlaqələr haqqında anlayışların, fəal vətəndaşlıq mövqeyinin və ekoloji məsuliyyətin formalaşdırılması, informasiya texnologiyaları sahəsində bacarıqların inkişaf etdirilməsi əsas vəzifələrdir. Belə tərbiyə mərkəzlərinin əsas vəzifəsi gənc nəsildə erkən yaşlarından ekoloji təfəkkürün formalaşması və yaradıcılıq potensialının aşkara çıxarılmasıdır. Məktəbdənkənar tərbiyə müəssisələrində yeni metodların və müasir təlim texnologiyalarının tətbiq olunması məktəblilərin asudə vaxtlarının səmərəli təşkilini göstərən əsas meyardır. Bəhs olunan məktəbdənkənar tərbiyə müəssisələrində təcrübəyə əsaslanan tədris prosesində yeni innovativ layihələrin və təlim texnologiyalarının tətbiqi təlim-tərbiyə işinin təkmilləşdirilməsinə şərait yaradır.

Bildirilib ki, bu işdə dərnək rəhbərlərinin üzərinə mühüm vəzifələr düşür. Dərnək rəhbərləri müasir tədris metodlarından və innovasiyalardan istifadəyə üstünlük verməli, nizam-intizama diqqət yetirməli, vəzifələrinin öhdəsindən layiqincə gəlməlidirlər. Hal-hazırda qarşıya çıxan problemlərdən biri də metodik vəsaitlərin çatışmazlığıdır. Yaxın vaxtlarda bu problem də aradan qaldırılacaq.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzinin direktoru Bahadur Fərəcov, Texniki Yaradıcılıq Mərkəzinin direktoru Sevinc Mirzəyeva, Şərur Rayon Ekoloji Tərbiyə Mərkəzinin direktoru Vaqif Cabbarov, Culfa Rayon Texniki Yaradıcılıq Mərkəzinin direktoru Anar Hüseynov rəhbərlik etdikləri məktəbdənkənar müəssisələrdə tədrisin vəziyyəti barədə məlumat verib, görülən işlər və qarşıda duran vəzifələr, dərnək rəhbərlərinin müasir tədris proqramlarından istifadəsinin vacibliyi barədə danışıblar.

Sonda məktəbdənkənar müəssisələrin rəhbərlərinə "Ekoloji dərnək məşğələlərinin nümunəvi tədris proqramları" və "Texniki Yaradıcılıq mərkəzlərində aparılan dərnəklərin nümunəvi tematik planı" adlı tədris vəsaitləri təqdim olunub.

**Fatma BABAYEVA**

---

# Muzey işçilərinin peşə hazırlığı ilə bağlı dəyirmi masa təşkil edilib

***Dünən Naxçıvan Dövlət Xalça Muzeyində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Muzey işçilərinin peşə hazırlığının artırılması sahəsində görüləcək işlər" mövzusunda dəyirmi masa olub.***



Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Həsən Kərimov çıxış edərək bildirib ki, Mədəniyyət və Turizm Nazirliyinin 2016-cı il üçün iş planına əsasən, il ərzində muzey işçilərinin peşə hazırlığının yüksəldilməsinə həsr olunmuş müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bu tədbirlərdən biri də il ərzində davam edəcək dəyirmi masalardır. Ötən dövr ərzində bir neçə dəyirmi masa keçirilib.

Dəyirmi masaların keçirilməsində məqsəd muzey işçilərinin peşə biliklərinin artırılması, muzey işinin daha da təkmilləşdirilməsi və iş prosesində qarşıya çıxan çətinliklərin aradan qaldırılması yollarını müzakirə etməkdən ibarətdir.

Muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsinə göstərilən qayğının nəticəsidir ki, muzeylərin iş şəraiti yaxşılaşdırılır, yeni yaradılan muzeylər müasir memarlıq üslubunda tikilən, lazımi inventar və avadanlıqlarla təchiz edilən binalarda yerləşdirilir. Həmin muzeylərə işə götürülən bələdçilər dil kurslarına göndərilir.

Bildirilib ki, nazirliyin iş planına uyğun olaraq il ərzində davam etdirilən seminar-treninqlər də muzey bələdçilərinin peşə biliklərinin artırılması, o cümlədən işçilər arasında təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətlidir.

Buna baxmayaraq, bir sıra muzeylərdə muzey işinin təşkilini, fond işinin aparılmasını, o cümlədən muzey bələdçilərinin apardığı ekskursiyaları hələ də tam qənaətbəxş hesab etmək olmaz. Bu baxımdan bugünkü dəyirmi masanın mövzusu aktuallığı ilə seçilir.

Dəyirmi masada Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova, Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədova, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova çıxış ediblər. Çıxışlarda işçilərin yaradıcı təşəbbüskarlığı, muzey bələdçilərinin vəzifə funksiyaları, mühazirə mətnlərinin yeni məlumatlarla zənginləşdirilməsi, muzey işçilərinin peşə biliklərinin artırılması, baş fond mühafizinin əmək funksiyalarına aid tələblər, uçot-mühafizə işinin təşkili, qəbul olunan əşyaların aktlarının tərtibi və başqa məsələlərə toxunulub, muzey işi sahəsində olan yeniliklərdən söhbət açılıb.

Tədbirin sonunda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

## *“Naxçıvan epiqrafik abidələrində görkəmli şəxsiyyətlər”* monoqrafiyasının təqdimatı olub

*Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində “Naxçıvan epiqrafik abidələrində görkəmli şəxsiyyətlər” monoqrafiyasının təqdimat mərasimi keçirilib.*

Təqdimat mərasimini AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq monoqrafiyanın hazırlanması sahəsində görülən işlərdən danışıb. Bildirib ki, tarixin mötəbər qaynaqlarından olan epiqrafik abidələr – kitabələr özlərində çoxlu görkəmli şəxsiyyətlərin adını qoruyub saxlayıb. Bu baxımdan adıçəkilən monoqrafiya böyük elmi əhəmiyyətə malikdir. Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən Naxçıvan Muxtar Respublikasında indiyədək gəlib çatan müsəlman epiqrafikası abidələrinin təqdim etdiyi məlumatlar əsasında orta əsrlər dövrü Azərbaycan dövlətlərinə rəhbərlik etmiş 10 hökmdar və Naxçıvan bölgəsində yaşayıb fəaliyyət göstərmiş 97 nəfər görkəmli şəxsiyyət (dövlət xadimləri, alimlər, şairlər və sair) haqqında bu dəyərli mənbənin hazırlanması gərgin və məhsuldar əməyin nəticəsində mümkün olub.

Monoqrafiyada haqqında danışılan şəxsiyyətlər qruplaşdırılıb. Kitabda bir çox şəkil və xəritə də yer alıb.

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun “Görkəmli şəxsiyyətlərin öyrənilməsində epiqrafik abidələrin rolu” mövzusunda məruzəsi, həmin institutun şöbə müdiri, dosent Asəf Orucov, institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyevanın, şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru İlhami Əliyevin çıxışları dinlənilib.

Sonda müəllif monoqrafiya haqqında məlumat verib, iştirakçıların suallarını cavablandırıb, təqdimat mərasiminin təşkilatçılarına minnətdarlığını bildirib.

✍ **Nərgiz İSMAYILOVA**

## Universitetdə keçirilən yarışların qalibləri mükafatlandırılıb

*28 May – Respublika Günü münasibətilə Naxçıvan Dövlət Universitetində təşkil edilən yarışların qaliblərinin mükafatlandırma mərasimi keçirilib.*

Tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək ali təhsil ocağında keçirilən müxtəlif yarışların kütləvi hal almasını tələbəgənclikdə elmi təfəkkür, sağlam düşüncə və fiziki hazırlığın inkişafı, onların asudə vaxtlarının səmərəli təşkili baxımından mühüm rol oynadığını vurğulayıb.

Universitetin tərbiyə işləri üzrə prorektoru, dosent Şamxal Məmmədov məlumat verib ki, “Universitet 2016” XIII çempionat çərçivəsində 28 May – Respublika Günü münasibətilə keçirilən fakültələrarası futbol yarışının qalibi Tibb fakültəsinin komandası olub. Tarix-filologiya fakültəsinin keçirdiyi intellektual yarışda isə 4 komanda iştirak edib. Tarix müəllimliyi ixtisasının tələbələrindən ibarət komanda I yerə çıxıb. Jurnalistika ixtisası tələbələrinin təmsil olunduğu komanda isə II yerə layiq görülüb.

Tibb fakültəsinin futbol komandasının qazandığı kubok komandanın kapitanı, Əczaçılıq ixtisasının II kurs tələbəsi Nicat Ağamalıya təqdim olunub. Tarix-filologiya fakültəsinin təşkil etdiyi intellektual yarışda xüsusi fərqlənən komanda üzvlərindən Tarix müəllimliyi ixtisasının tələbələri Türkanə Zeynalovaya, Zülfin Kərimovaya və Səkinə Hüseynovaya I dərəcəli diplomlar verilib. Jurnalistika ixtisasının tələbələrindən Kazım Kazımov, Badəm Məmmədova, Məmmədbağır Dünyamalıyev, Türkay Həsənov II dərəcəli diplomlarla təltif olunublar.

**Mehriban SULTAN**

## *“Lira”* musiqili-intellektual oyunu keçirilib

***Dünən Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında növbəti “Lira” musiqili-intellektual oyunu keçirilib. Qeyd edək ki, ötən ildən başlanılan “Lira” musiqili-intellektual oyunlarında muxtar respublikanın 6 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri iştirak edirlər.***



Oyun başlamazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanova çıxış edərək bildirib ki, nazirlik tərəfindən üçüncü dəfə təşkil olunan “Lira” musiqili-intellektual oyunun məqsədi şagirdlərin biliyinin artırılmasına, onların intellektual səviyyəsinin yüksəldilməsinə kömək göstərməkdir. Bu oyunlar xalqımızın böyük bəstəkarlarının həyat və yaradıcılığını təbliğ etmək və zəngin musiqi irsimiz haqqında təsəvvürləri genişləndirmək baxımından da əhəmiyyətlidir. Keçirilən oyunlar müəllimlər və şagirdlər tərəfindən maraqla qarşılanır. “Lira” musiqili-intellektual oyunları gələcəkdə də davam etdiriləcək. Musiqili-intellektual oyun hər dəfə bir görkəmli Azərbaycan bəstəkarının həyat və yaradıcılığına həsr olunur. Budəfəki oyun isə peşəkar Azərbaycan musiqisinin yaradıcısı və banisi Üzeyir Hacıbəyliyə həsr edilib.

Sonra musiqili-intellektual oyunda yarışacaq uşaq musiqi məktəblərinin komandaları təqdim olunub. Bildirilib ki, yarışda “Dəsgah” (Babək Rayon Cəhri Kənd Uşaq Musiqi Məktəbi), “Əlincə” (Culfa Rayon Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi), “Rast” (Şərur Rayon Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi), “Nuh yurdu” (Kəngərli Rayon Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi) komandaları iştirak edirlər. Oyunun şərtlərinə görə, yarış 5 nəfərdən ibarət olan 4 komanda arasında keçirilir və 3 turdan ibarətdir. I turda görkəmli Azərbaycan bəstəkarlarının həyat və yaradıcılığına dair, II turda şagirdlərə musiqi əsərlərini dinləmə yolu ilə təyinetmə formatında, III turda isə ümumi musiqi dünyagörüşünə dair suallar veriləcəkdir.

Maraqlı və gərgin keçən musiqili-intellektual oyunda musiqi məktəblərinin şagirdləri böyük bəstəkarla bağlı sualları cavablandırmaqda fəallıq göstəriblər. Onlar böyük Azərbaycan bəstəkarları Ü.Hacıbəyli, A.Zeynallı, Q.Qarayev, Niyazi, F.Əmirov, V.Adıgözəlov, Q.Hüseynli və başqalarının əsərlərini dinləmə yolu ilə təyin ediblər, musiqinin ümumi nəzəri məsələləri ilə bağlı sualları cavablandırıblar.

Bütün suallar cavablandırıldıqdan sonra ən yüksək bal toplamış komandalar mükafatlandırılıblar. Ən çox bal toplamış “Əlincə” komandası I yerə, “Rast” komandası II yerə, “Nuh yurdu” komandası III yerə layiq görülüb. Babək Rayon Cəhri Kənd Uşaq Musiqi Məktəbinin “Dəsgah” komandası diploma mükafatlandırılıb.

**Əli RZAYEV**

***Dərs ilinin başa çatdığı yay dövründə məktəblilərin asudə vaxtlarının səmərəli keçməsində məktəbdənkənar tərbiyə müəssisələrinin üzərinə mühüm vəzifələr düşür. Bu baxımdan Babək Rayon Ekoloji Tərbiyə Mərkəzinin dərnəklərində aparılan məşğələlərdən reportaj hazırlamaq üçün rayona üz tutduq. Qeyd edək ki, ekoloji tərbiyə mərkəzinin əsas məqsədi şagirdlərə ekoloji biliklər verməklə təbiəti mühafizə, təbii sərvətlərdən səmərəli istifadə olunması və bu sərvətlərin qorunaraq gələcək nəsillərə çatdırılmasının dövlətimizin prioritet məsələlərindən biri olmasını aşılamaq, bugünkü məktəblilərin təbiətə məhəbbət ruhunda formalaşdırılmasına nail olmaqdır.***

**Yazmasaq, olmur**

## Ekoloji tərbiyə mərkəzlərində dərnək məşğələləri niyə keçirilmir?

Öyrəndik ki, bu məktəbdənkənar tərbiyə müəssisəsində 26 adda dərnək fəaliyyət göstərir. Cədvəl üzrə məşğələlərdə iştirak etmək, dərnəklərdə ekoloji tərbiyənin necə aşılanması ilə tanış olmaq istədik. Əvvəlcə Babək Rayon Ekoloji Tərbiyə Mərkəzində olduq. Mərkəzin direktoru Ramiz Babayevdən mərkəzin neçənci ildən fəaliyyət göstərdiyini soruşduq. Direktor rəhbərlik etdiyi təhsil müəssisəsinin fəaliyyətə başladığı ildən xəbərsizdir. Öyrəndik ki, Fauna və ekologiya dərnəyinin rəhbəri elə Ramiz müəllimdir. Həmin gün dərnəyin məşğələsi olsa da, dərnək aparılmırdı. Kənd təsərrüfatı və ekologiya dərnəyi Babək qəsəbə 2 nömrəli tam orta məktəbdə təşkil edilib. Lakin dərnək rəhbəri Süsənbər Əsgərova nə özü yerində idi, nə də dərnək üzvləri. Eyni vəziyyətin Şəkərabad kənd tam orta məktəbində də şahidi olduq. Burada Heyvanşünaslıq və ekologiya dərnəyinin müəllimi Vaqif Məhərrəmov və şagirdləri yerində yox idi.

Növbəti günlərdə başqa məktəblərdə də təşkil olunmuş dərnək məşğələlərində iştirak etmək istədik. Yarımca kənd tam orta məktəbində Əhali və ətraf mühit üzrə Kifayət Səfərovanın, Hacıvar kənd tam orta məktəbində Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri üzrə Telli Rəhimovanın məşğələlərinin cədvəldə yalnız adıdır.

Kərimbəyli kənd tam orta məktəbində isə məlum oldu ki, Gülçülük və ailə dərnəyi üzrə Ceyran Əzimova ötən ildən bu yana heç bir məşğələ keçməyib. Kültəpə kənd tam orta məktəbində Heyvanşünaslıq dərnəyi üzrə Elşad Məmmədov da məktəbdə heç bir məşğələ aparmır.

Ümumiyyətlə, bir neçə gün ərzində müşahidələr apardığımız məktəblərdə nə müəllim gördük, nə də dərnək üzvü. “Nizam-intizamın daha da möhkəmləndirilməsi ili” elan olunan 2016-cı ildə mərkəzin müəllimlərinin öz işlərinə belə biganə yanaşmalarına nə ad vermək olar?

Müşahidələrimizi Kəngərli Rayon Ekoloji Tərbiyə Mərkəzində aparmağa davam etdik. Cədvəldə mərkəzin adının səhv yazılması təəssüf doğurur. İlk olaraq Xok kəndindəki Əbülfəz Bayramovun Meşəçiliyin əsasları dərnəyinə üz tutduq. Məşğələdə iştirak etmək istədik. Təəssüf ki, burada da heç bir məşğələ aparılmırdı. Böyükdüz kəndində Vaqif Babayev tərəfindən Azərbaycan torpaqlarının ekologiyası dərnəyinin cədvəllə müəyyən edilmiş məşğələsi keçirilməli olan otaq boş idi.

Müşahidələrimizdən belə qənaətə gəlirik ki, cədvəl formal olaraq tutulub. Müəllimlərin cədvəldə adı var, özləri isə məşğələ keçmirlər.

Dərnək rəhbərləri uşaqlara məşğələlərdə təbiətimizi sevdirməyi, ekologiyamızı qorumağı, kənd təsərrüfatı ilə məşğul olmağın üstünlüklərini izah etmək kimi vacib məsələləri yerinə yetirməyə borcludurlar. Birinci ona görə ki, əməkhaqqı alırlar. İkinci bir tərəfdən bu vəzifələri yerinə yetirmək onların ziyalılıq borcudur. Unutmaq olmaz ki, ekoloji tərbiyəyə hələ kiçik yaşlardan başlanılmalıdır. Erkən yaşlardan uşaqlarda təbiət hadisələrinə düzgün baxış formalaşdırmaq, onlara təbiəti, canlıları sevdirmək, uşaq qəlbində xeyirxahlıq hissləri oyatmaq lazımdır. Kiçik yaşlardan buna diqqət yetirilməzsə, uşaqda təbiətə, fauna və floraya qarşı laqeydlik, hətta qəddarlıq, rəhmsizlik hissləri baş qaldıra bilər. Təbiətə qarşı qəddarlıq təbiət gözəlliklərinə laqeydlikdən, ətraf aləmə qeyri-həssas münasibətdən, bir sözlə, uşaq qəlbində xeyirxahlıq hisslərinin kütləşməsindən başlanır. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda ekoloji maarifləndirmə işi diqqətdə saxlanılan məsələlərdən biridir. Bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında keçirilən aksiyalarda yüzlərlə gənc fəal iştirak edib. Muxtar respublikada bu sahəyə önəm verildiyi bir zamanda ekoloji tərbiyə mərkəzlərinin işlərini belə yarıtmaz səviyyədə qurmaları düşündürücüdür.

*Yuxarıda da qeyd etdiyimiz kimi, bu gün uşaqların ekoloji tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Məhz bu baxımdan ekoloji tərbiyə mərkəzlərinin üzərinə mühüm vəzifələr düşür. Qalır ki, həmin vəzifələri yerinə yetirəsən. Artıq dərs ili başa çatmaqdadır. Yeni dərs ilində mərkəzlərdə məşğələlərin yüksək səviyyədə keçirilməsini arzu edirik!*

✍ **Sara ƏZİMOVA**

## Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində təlim-məşğələ

*Muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan uşaqlara həssaslıqla yanaşılır, onların sosial müdafiəsi, təhsili, cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının mənalı təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu baxımdan “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” mühüm əhəmiyyət daşıyır.*

Dövlət proqramına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sağlamlıq imkanları məhdud uşaqların təhsil müəssisələrinə cəlb edilməsi, onların reabilitasiyasının gücləndirilməsi, habelə uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə bir sıra işlər görülür. Belə ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün distant dərslər keçilir, onların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlər təşkil edilir və bu kateqoriyadan olan uşaqlara müxtəlif sosial reabilitasiya xidmətləri göstərilir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan Defektoloji bölmə və psixoloji dəstək xidməti Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirib. Mərkəzin müəllim-defektoloqları uşaqlarla fərdi qaydada reabilitasiya yönümlü məşğələ aparıb və təlim-tərbiyə işinə məsul mütəxəssislərə və valideynlərə uşaqların təlim-tərbiyəsinin təşkili və onlarla ünsiyyətqurma bacarıqlarının inkişaf etdirilməsinə dair məsləhət və tövsiyələr veriblər.

Təlim-məşğələlərin keçirilməsində əsas məqsəd bu kateqoriyadan olan uşaqların həyat və təhsil mühitinə inteqrasiyasına köməklik göstərməkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## İşəgötürənlərin nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən müntəzəm olaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində “İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi”, həmçinin “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” mövzusunda maarifləndirici kurslar təşkil edilir.

Təşkilati-hüquqi formasından asılı olmayaraq bütün işəgötürənlər mütəxəssislərin müvafiq kurslarda iştirakını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə müraciət edə bilərlər.

***Ünvan: Heydər Əliyev prospekti 32 (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binası). Telefon: (036) 545-32-99, Faks: (036) 545-32-06***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 446